# KİTABXANA MÜTƏXƏSSİSLƏRİNİN PEŞƏKARLIĞINA VERİLƏN TƏLƏBLƏR

**Aygün İsgəndərova**

*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı*

Hər bir müəssisədə işin təşkili, düzgün idarə olunması və effektivliyi peşəkar kadr təminatından asılıdır. İşçilərin fəaliyyətinin operativ və səmərəli təşkili üçün düzgün hazırlanmış vəzifə təlimatı böyük əhəmiyyət kəsb edir. Vəzifə təlimatı - müəssisə, şirkət və təşkilatın ştat cədvəlində nəzərdə tutulmuş vəzifəni yerinə yetirmək üçün təyin edilən şəxsin vəzifə və öhdəliklər dairəsini, məsuliyyətini əhatə edən təlimatdır.

Hər bir idarədə vəzifə təlimatının dəqiq təşkil olunması hazırda aktual problemlərdəndir. Vəzifə təlimatı elə qurulmalıdır ki, işçilər arasında iş bölgüsü düzgün aparılsın, onun həyata keçirilməsi effektiv olsun. Kitabxanaçının əsas peşə etikasına daxil olan məsələlərə - oxucu tərəfindən tələb olunan bütün informasiya ilə onu təmin etmək, oxucu ilə ünsiyyətə girməyi bacarmaq, istədiyi və bəlkə də istəyini düzgün ifadə etmədiyi məsələ barədə kömək etmək, etika qaydalarına uyğun münasibət yaratmaq, onun mədəni və professional inkişafını təmin etmək aiddir. Çünki kitabxanaçı həmişə bir pedaqoq, müəllim kimi humanist ideyalara sadiq qalmalıdır.

Müasir oxucu kitabxanaçıdan daha yeni axtarış üsulları, formalar tələb edir. Bunun üçün də kitabxanaçı dövrün və zamanın qarşıya qoyduğu məsələlərdən xəbərdar olmalı, professional şəkildə xidmət göstərməyi bacarmalıdır.

Müasir dövrdə informasiya xidməti bir sıra oxucu qrupları ilə işdə ən üstün istiqamət hesab olunur. Bu gün məlumatın verilməsi, informasiyanın seçilərək yayılması işi tamamilə avtomatlaşdırmaya, kompüterdən istifadəyə yönəlməkdədir. Belə bir şəraitdə oxucuya xidmət işini etik cəhətdən neytral fəaliyyət kimi qiymətləndirənlər vardır ki, onlar bu sahədə yalnız kitabxanaçının peşəkarlığını əsas götürürlər. Kitabxanaçı daim sakitliyi, təmkini qorumalı, bəzən aqressiv şəkildə müraciət edən, müxtəlif temperament növlərinə aid oxuculara məhz etika davranışlarını pozmadan xidmət etməyi bacarmalıdır. İlk növbədə onun sorğularına laqeydliklə yanaşmamalıdır. Çünki hər bir şəxsin axtardığı informasiya onun üçün mühüm əhəmiyyət kəsb edir. Kitabxanaçı isə burada bələdçidir. Kitabxanaçı bəzən müəllim, bəzən həmkar, eyni zamanda məsuliyyətli vətəndaş kimi öz vəzifəsini yerinə yetirməlidir.

Hər bir oxucunu fərdi şəkildə qəbul etmək, onunla özünəməxsus formada münasibət qurmaq əsas şərtlərdən biridir. Ünsiyyətin ilk anlarından götürülən mövqe və təmkin, yüksək etik davranış oxucunu da eyni tempdə davama məcbur edəcəkdir. Əsas məqsəd - kitabxanaçıya yardımçı kimi yanaşan, ondan kömək gözləyən, onu işinin peşəkarı kimi görən oxucunun gözləntilərini doğrultmaqdır. Gənc oxucularla, ali təhsili olmayan, peşə sənətli şəxslərlə, əsasən də tələbələrə xüsusilə həssas yanaşılmalıdır.





Kitabxanaçı dilindən, dinindən, irqindən, sosial statusundan, yaşından asılı olmayaraq hər bir şəxsə, eyni zamanda hərəsinə özünəməxsus formada tələb olunan şəkildə xidmət göstərməli, bununla da öz yüksək peşəkarlığını biruzə verməlidir. Bu məqsədlə hər il müəyyən təcrübəsi olan yaşlı nəslin nümayəndələri ilə kitabxanalararası görüşlər keçirmək, onların qarşılıqlı təcrübə mübadiləsi aparmalarına şərait yaratmaq məqsədəuyğundur. Belə ki, hər bir kitabxana kollektivi bəhs edilən mövzuda öz təcrübəsindən nümunələr göstərməli, həmkarlarının da bu sahədə təcrübələrinə qulaq asıb bəhrələnməlidir.